**ELVİRA MƏHƏMMƏD qızı LƏTİFOVA**
*Bakı Dövlət Universiteti*
E-mail: *eletifova@mail.ru*

# ŞƏKİ XANLIĞI VƏ İLİSU SULTANLIĞI: XVI-XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ QAFQAZIN SİYASİ TARİXİNDƏKİ YERLƏRİ VƏ QARŞILIQLI ƏLAQƏLƏRİ

**Xülasə:** Təqdim etdiyimiz məqalənin yazılmasında başlıca məqsəd Azərbaycanın şimal qərbində mövcud olmuş iki hakimliyin – Şəki xanlığının və İlisu sultanlığının XVI-XIX əsrin əvvəlləri arası Qafqazın siyasi tarixindəki rolunu dövrün mənbələri əsasında tədqiq etməkdir. Bununla yanaşı Şəki xanlığı ilə İlisu sultanlığı arasındakı münasibətlərin araşdırılmasına da ayrıca yer ayrılmışdır.
Mövzu ilə bağlı apardığımız tədqiqat həm Şəki xanlığının, həm də İlisu sultanlığının Qafqaz üçün mürəkkəb dövrdə - Qafqaz uğrunda Səfəvi-Osmanlı rəqabəti şəraitində yarandığını göstərmişdir. Bundan əlavə, yarandıqları və mövcud olduqları dövrdə bu iki dövlət qurumu nəhəng imperiyaların Qafqaz siyasətində mühüm rola və yerə malik olmuşdular.
Məqalədə ayrıca olaraq Şəki xanlığı – İlisu sultanlığı münasibətləri də araşdırılmış və onların arasında sıx siyasi-iqtisadi, müttəfiqlik və qohumluq əlaqələrinin mövcud olması nəticəsinə gəlinmişdir.
**Açar sözlər:** Şəki xanlığı, İlisu sultanlığı, Qafqaz, Səfəvi dövləti, Osmanlı imperiyası

**UOT:** 94(479.24)
**DOI:** doi.org/10.54414/bzor9647

## Giriş

XVI-XIX əsrin yarısında Azərbaycanın şimal-qərbində mövcüd olmuş dövlət qurumları (Şəki xanlığı, İlisu sultanlığı və Car-Balakən camaatlığı – E.L.) nəinki Azərbaycanın, hətta bütün Qafqazın siyasi tarixində mühüm rol oynamışdılar.

Məlum olduğu kimi, XVI əsrdən etibarən Qafqaz iki nəhəng türk imperiyasının – Səfəvi və Osmanlı dövlətlərinin maraqlarının toqquşduğu mühüm bölgələrdən birinə çevrilir. İki türk dövləti arasında olan rəqabət, demək olar ki, 1736-cı ildə Səfəvilər dövlətinin süqutuna qədər davam etmişdir. Hazırki məqaləmizdə biz həm həmin prosesdə bu bölgədəki iki dövlət qurumunun – Şəki və İlisu hakimliklərinin yerini və rolunu tədqiq edəcəyik, həm də bu iki hakimlik arasında mövcud olmuş münasibətləri işıqlandıracağıq. Qarşımıza qoyduğumuz məqsədə nail olmaq üçün isə ilk öncə həmin dövlət qurumlarının yarandığı tarixi-siyasi şəraitə nəzər salmaq məqsədəuyğun hesab edirik.

XVI əsrin əvvəllərində paytaxtı Təbriz olan Səfəvilər dövlətinin I İsmayıl tərəfindən yaradılması ilə Azərbaycan torpaqlarının vahid dövlət çərçivəsində birləşdirilməsi prosesinə başlanıldı.

Osmanlı imperiyası Qafqazda zəngin ipəkçilik mərkəzlərindən olan Şəki, Şirvan, Xəzərsahili əraziləri ələ keçirməyə can atırdı. Osmanlı imperiyasının bu siyasəti bütün Azərbaycan torpaqlarını vahid dövlət şəklində birləşdirməyə çalışan Səfəvi dövlətinin şiddətli müqavimətinə rast gəldi. Qafqaz uğrunda mübarizədə Azərbaycanın şimal-qərb torpaqları mühüm siyasi-strateji rol oynayırdılar. Bu torpaqlar isə X əsrdən başlayaraq Gürcüstan çarları tərəfindən işğal olunmuş və Gürcüstan ərazisində mövcud olmuş dövlətlərinin tərkibində qalmaqda idi [1, səh. 44].

Azərbaycanın zəngin ipəkçilik bölgələri olan Şəki və Şirvan, o cümlədən Xəzərsahili vilayətlər üzərində nəzarəti ələ almağa çalışan Osmanlı imperiyası Səfəvilərdən əvvəl Gürcüstanın qərbində möhkəmlənmişdi. Səfəvi şahları isə Gürcüstanın şərq vilayətlərində möhkəmlənməyə çalışırdılar.

Siyasi pərakəndəlik dövrünü yaşayan Gürcüstan nə Osmanlı, nə də Səfəvi dövləti ilə mübarizə aparmaq iqtidarında deyildi. Bunu anlayan Gürcüstan hökmdarları sultanla şah arasında manevr etməyə və hətta öz aralarındakı daxili mübarizədə Osmanlı və Səfəvi dövlətlərinin bölgədəki maraqlarından istifadə etməyə

çalışırdılar. Gürcü hökmdarları içərisində Səfəvilərdən asılılığı qəbul edən Kaxetiya çarı Aleksandr olmuşdu [2, səh.63]. Lakin bu asılılıq nominal xarakter daşıyırdı. Şah İsmayıl müntəzəm olaraq gürcü hökmdarlarının qiyamlarını yatırmalı olurdu. Bu məsələdə o, həm də Gürcüstanla qonşuluqda olan və bir neçə əsr ərzində gürcü çarlarının təzyiqinə qalan yerli müsəlman hakimliklərinin qüvvələrindən də istifadə edirdi. Məhz bu siyasətin nəticəsi olaraq tədricən bölgədə Şəki və Saxur (gələcəkdə İlisu – E.L.) hakimlikləri yüksəlməyə başladı.

**Səfəvi dövlətinin Qafqaz siyasətində Şəki hakimliyi**

1521-ci ildə Gürcüstana qarşı təşkil olunan yürüşün məqsədi gürcü çarı Ləvəndin bölgədə Səfəvilərin sadiq müttəfiqi olan Şəki hakimliyinə qarşı planladığı hücumun qarşısını almaq olmuşdur [2, səh.63]. Lakin buna baxmayaraq, 1524-cü ildə Kaxetiya hökmdarı Ləvənd xan yenidən Şəki hakimliyinə hücum edir [1, səh.51].

Belə şəraitdə gürcü hökmdarlarının tamamilə itaətə gətirilməsi məqsədilə Səfəvilər imperiyası Gürcüstanla həmsərhəd ərazilərdə müsəlman hakimliklərinin yaradılması və onların mövgelərinin möhkəmləndirilməsi siyasətindən istifadə etməyə başlayırlar.

Şah İsmayılın dövründə Gürcüstana üç yürüş təşkil edilmişdi. Bu yürüşlərin nəticəsində Gürcüstan Səfəvi dövlətindən asılı vəziyyətə düşmüşdü. Lakin bu asılılıq nominal xarakter daşıyırdı. Şah vaxtaşırı gürcü qiyamlarını yatırmalı olurdu. Belə ki, 1521-ci ildə baş tutmuş Səfəvilərin Gürcüstana üçüncü yürüşü gürcü çarı Levanın Səfəvilərin şimal-qərbdəki ən sadiq müttəfiqi olan Şəki hakimliyinə qarşı təşkil etdiyi yürüşün qarşısını almaq məqsədini daşıyırdı [2, s.63]. Şəki hakimi, Naxçıvan düşərgəsində olan Şah İsmayıla müraciət edərək kömək istəmişdi. Səfəvilərin vassallarından olan Kaxetiya çarı Levan digər gürcü çarları ilə birlikdə Şah İsmayılın yanına gedərək günahından keçməsini xahiş etdi. Beləliklə, Şəki hakimliyi Səfəvi dövlətinin vassalı olmaq yolu ilə öz daxili müstəqilliyini saxlaya bildi [3, səh.10].

Qeyd etmək lazımdır ki, gürcü çarları ilə mübarizədə Səfəvi şahı İsmayılın yardımına arxalanan Şəki hakimi Həsən bəy hələ 1519-cu ildə Səfəvi dövlətindən asılılığını qəbul etmişdi [4, səh.195].

Lakin buna baxmayaraq, 1524-cü ildə Kaxetiya çarı Levan Şəkiyə yenidən hücum etdi. Şəkililər və Kaxetiyalılar arasında baş vermiş döyüşdə şəkililər məğlub oldular, Həsən bəy isə öldürüldü [2, səh.64]. Bu hadisədən sonra Levan və onun müttəfiqi çar Luarsab mesxiyalılarla birlikdə Gəncəyə, Şəkiyə, Şirvana, və Azərbaycanın digər vilayətlərinə mütəmadi olaraq qarətedici yürüşlər təşkil edirdilər [2, səh.64]. Bu səbəbdən, gürcü çarlarını cəzalandırmaq üçün, şah İsmayıl yürüşə hazırlaşırdı. Lakin yürüşə şahın ölümü mane oldu.

Həm Səfəvi dövləti, həm də Osmanlı imperiyası Gürcüstanı tamamilə tabe etmək məqsədilə onunla həmsərhəd olan Azərbaycanın şimal-qərb ərazilərində müsəlman feodal hakimliklərinin yaradılması və möhkəmləndirilməsi siyasətinə xüsusi diqqət yetirirdilər.

Bu siyasətin tərkib hissəsi kimi, Səfəvilər Şəki hakimliyinin möhkəmlənməsinə xüsusi diqqət verməyə başlayırlar. Beləliklə, Şəki hakimi Həsən bəy Səfəvi sarayının sadiq vassalına çevrilir.

Şəkidə Həsən bəyin oğlu Dərviş Məhəmmədin hakimiyyəti dövründə Səfəvi dövləti ilə münasibətlər pisləşdi. Şəki hakimi ilə Şah Təhmasibin münasibətlərinin pisləşməsinə səbəb isə Şirvan məsələsi idi [5, səh.24]

Şirvanşahlar dövlətinin süqutundan sonra Dərviş Məhəmməd xan yenidən Səfəvilərlə yaxınlaşmağa çalışır. 1539-cu ildə Şirvanşahlar dövlətinin süqutundan sonra Dərviş Məhəmməd xan şirvanşah II Xəlilullahın dul qadını və Şah Təhmasibin bacısı Pərixan xanımla evləndi və səfəvilərlə qohum oldu [3, səh.11]. Ancaq 1547-ci ildə Pərixan xanımın vəfatından sonra Şəki hakimliyi ilə Səfəvilər arasında münasibətlər yenidən pisləşdi. Buna səbəb Şah Təhmasibin qardaşı, Şirvan bəylərbəyi Əlqas Mirzənin mərkəzi hakimiyyətə qarşı 1547-ci ildə qaldırdığı qiyam zamanı Dərviş Məhəmmədin axırıncısını dəstəkləməsi oldu.

1551-ci ildə Şah Təhmasib Azərbaycanda qalan sonuncu müstəqil dövlət qurumu olan Şəki hakimliyini ləğv etmək qərarına gəldi. Şah Təhmasib şəxsən qoşunun başında Ərəşə gəldi. Kaxetiya çarı Ləvənd xan da Təhmasibin

hüzuruna gəldi və öz sədaqətini şaha nümayiş etdirdi. Qızılbaşların say üstünlüyünə baxmayaraq, şəkililər Kiş və Gələsən-Görəsən qalalarında möhkəmləndilər və şahın ordusuna şiddətli müqavimət göstərdilər.

20 günlük mühasirədən sonra qalabəyi Mahmud bəy müqavimətinin mənasız olduğunu görərək təslim oldu və qalanın açarını şaha verdi [3, səh.11]. Belə vəziyyətdə Dərviş Məhəmməd xan gecə vaxtı öz yaxın silahdaşları ilə birlikdə “Gələsən-Görəsən” qalasını tərk edib qaçmağa çalışırdı, lakin şahın adamları tərəfindən yaxalanmış və öldürülmüşdü [2, səh.91-92].

Tanınmış Səfəvi sərkərdələrindən biri olan Toygün bəy Qacar şah tərəfindən Şəki hakimi vəzifəsinə təyin edilmişdir [6, səh.204].

Beləliklə, Şəki hakimliyi ləğv edildi və Səfəvi dövlətinin tərkibinə qatıldı. Bundan sonra da Şah Təhmasib şimal-qərbi Azərbaycanda müsəlman hakimliklərinin yaradılması və möhləmləndirilməsi siyasətini davam etdirirdi.

Bu siyasətin davamı olaraq, Səfəvilər Şəki hakimliyi ilə həmsərhəd ərazidə gələcəkdə İlisu sultanlığına çevrilən Saxur hakimliyini yaratdılar [1, səh.45].

**Saxur (İlisu) sultanlığının yüksəlişi və Saxur hakimi Əli sultanın Şəki hakimliyini idarə etməsi**

XVI əsrin II yarısında Şəki hakimliyinin şimal-qərbində daha bir müsəlman dövlətinin – Saxur (gələcəkdə İlisu) hakimliyinin əsasının qoyulması üçün zəmin yaranır.

Məsələ burasındadır ki, 1555-ci ildə Osmanlı və Səfəvi dövlətləri arasında Amasya sülhü bağlandıqdan sonra, şah Təhmasib gürcü çarlıqları ilə həmsərhəd olan Azərbaycan ərazilərində yeni müsəlman dövlətlərinin yaradılmasına daha böyük əhəmiyyət verməyə başladı. Bu siyasətin davamı olaraq, şah Təhmasib 1562-ci ildə Saxur hakimi Adıqurqulu bəyə Böyük Qafqaz dağlarının cənub yamaclarında yerləşən Babalı, Qorağan və Şotavar kəndlərini (Azərbaycanın müasir Qax rayonunun kəndləri – E.L.) bağışladı [7, səh.321]. Fərmanda Kaxetiya hakimi Ləvənd xana isə Adiqurqulu bəyin ixtiyarında olan ərazilərin hüdudlarına daxil olmaq qadağan edilirdi.

Lakin 1590-cı ildə Osmanlı dövləti ilə Səfəvi dövləti arasında İstanbul sülhü bağlandıqdan sonra Şimali Azərbaycan və Gürcüstan torpaqları tamamilə Osmanlı imperiyasının hakimiyyəti altına keçir [8, səh.241]. Buna baxmayaraq, Osmanlı höküməti də bölgədə müsəlman hərbi-siyasi birləşmələrinin yaradılması və gücləndirilməsi siyasətini davam etdirir. Nəticədə Sultan III Murad (1574-1595) 1591-ci ildə Saxur hakimi Adiqurqulu bəyin adına xüsusi fərman göndərir. Fərmanda deyilirdi: “...Şəki əyalətinin hakimi əmir Osman bizə məlumat verir ki, siz taxtımıza xüsusi sədaqətinizlə fərqlənirsiniz və daim bizim müqəddəs xanədanımıza xidmət etməyə hazır olduğunuzu göstərirsiniz. Bunu nəzərə alaraq, o, Şəki əyalətinin tabeçiliyində olan və müharibə gedişatında əhalisi müxtəlif yerlərə dağılmış Qax və Meşəbaş kəndlərini sizin irsi idarəçiliyinizə verilməsini xahiş edir. Və əlavə edir ki, bu kəndlərin sizə verildiyi təqdirdə, siz dağılmış əhalini yenidən toplayaraq həmin kəndlərdə məskunlaşdıra bilərsiniz ....

Bunu nəzərə alaraq, biz xüsusi lütfümüzlə yuxarıda adları çəkilən kəndləri bütün vergiləri ilə birlikdə yuxarıda göstərilən şərtlər əsasında sizə irsi hakimlik hüququnda bağışlayırıq. Siz isə Şəki əyalətini daim müxtəlif ləzgi tayfalarının hücumlarından qorumalısınız. Biz sizə əmr edirik ki, siz, indidən sonra bu kəndlərin irsi hakimi olaraq, taxtımıza səmimi sədaqətinizlə xidmət edəsiniz. Hazırki fərman bu məqsədlə verilmiş və onun dəqiq yerinə yetirilməsi tələb olunur” [9, v.8-9]. Beləliklə, Azərbaycanın şimal-qərb torpaqları Qafqazda Osmanlı imperiyasının hakimiyyəti dönəmində də uc torpaqları funksiyasını davam etdirir. Onu da qeyd edək ki, yuxarıdakı fərmandan da göründüyü kimi, Saxur (İlisu) hakimliyindən Osmanlı xəzinəsinə heç bir verginin ödənilməsi tələb olunmur, əksinə, Adiqurqulu bəyə verilən kəndlərdən alınacaq vergilər onun özünün sərəncamına verilirdi. Adiqurqulu bəydən isə burada nizam-intizamın bərpa edilməsi və bu torpaqları yadelli basqınlarından müdafiə edilməsi tələb olunurdu.

Səfəvilərə qarşı birinci və ən iri üsyan Azərbaycanın şimal-qərbində - car-balakənlilərin, ilisuluların və şəkililərin birləşmiş qüvvələri tərəfindən qaldırıldı. Bu üsyana İlisulu Əli sultan başçılıq edirdi [1, səh.54]. Üsyan daha çox Səfəvi

dövlətinin apardığı dini ayrı-seçkiliyə qarşı yönəlmişdi.

Yenə də, əvvəlki dövrlərdə olduğu kimi, Osmanlı imperiyası özünün Qafqaz siyasətində Azərbaycanın şimal-qərb bölgələrinə xüsusi önəm verir. Fikrimizi həmin illərdə Osmanlı sultanları tərəfindən verilmiş fərmanlar təsdiq edir. Belə ki, artıq 1722-ci ildə Sultan III Əhməd İlisulu Əli sultanın adına aşağıdakı məzmunda fərman verir: “Devlet-i Aliyemizin siz təcrübəli, cəsur və alicənab Dağıstan əmirinə olan lütfünün təzahürü olaraq, hazırki hicri 1135-ci ilin zil-kade ayının birinci günü sizi Saxur sancağı daxil olmaq şərtilə Şəki hakimliyinin bəylərbəyi vəzifəsinə təyin edirik. Bu üzdən bu fərmani aliyəni aldığınız gündən qeyd edilən hakimlik və sancağının idarə edilməsinə başlayasınız... Bizdən Krım xanı titulunu almış Şirvan bəylərbəyi Hacı Davud xanla birlikdə hər zaman hər iki hakimliyin əhalisi arasında şəriət qanunlarının möhkəmlənməsinə xidmət edin... Diyarın və təbəələrinizin təhlükəsizliyinin və ədalətin qorunmasına xüsusi diqqət yetirin” [9, v.27-28]. Beləliklə, bu fərmanla İlisu sultanlığı Şəki hakimliyi ilə birlikdə Osmanlı imperiyasının hakimiyyəti altına keçir.

Osmanlı hökuməti tərəfindən Əli sultanın Şəki bəylərbəyi təyin edilməsi təsadüfi deyildi. Osmanlı hakim dairələri Əli sultanın Səfəvilərə qarşı hərəkatdakı xidmətlərini nəzərə alaraq, onu Şimali Azərbaycanda öz mövqelərini möhkəmləndirmək üçün etibarlı dayaq kimi görürdü. Osmanlıların bu siyasəti, öz növbəsində, İlisu sultanlığının bölgədə mövqelərinin möhkəmlənməsinə şərait yaradırdı. Onu da qeyd edək ki, İlisulu Əli sultan Saxur hakimliyinin banisi olmuş Adı Qörklü bəyin oğlu Sarı Əli bəyin nəvəsi idi. Sarı Əli bəy isə artıq əvvəl qeyd etdiyimiz kimi, XVII əsrin əvvəllərində Osmanlı imperiyası Qafqazda möhkəmləndikdə, Osmanlılara öz sədaqətini nümayiş etdirmiş və onun adına Osmanlı sarayından fərmanlar verilmışdi [1, səh.58]. Görünür, İlisulu Əli sultanı Şəki bəylərbəyi vəzifəsinə təyin edərkən, Sultan III Əhməd onun babasının da Osmanlılara göstərdiyi xidmətləri nəzərə almışdı.

Kür çayından şimaldakı Azərbaycan torpaqları isə xüsusi statusa malik idi. Bu ərazilər vassal yerli hakimlər tərəfindən idarə olunurdu. Məsələn, artıq qeyd etdiyimiz kimi, paşa rütbəsi almış Əli Sultan xüsusi fərmanla Şəki vilayətinin bəylərbəyi vəzifəsində təsdiq olunmuşdu. 1725-ci ildən isə Əli Sultanın hakimiyyəti altına vassal mülkü olaraq Ərəş də keçir. Belə ki, 1725-ci ildə Sultan III Ahmet tərəfindən Əli Sultanın oğlu Məhəmməd Əli Sultanzadənin adına xüsusi fərman verilir. Bu fərmanda həm də deyilirdi ki, Məhəmməd bəy Osmanlı paşalarının ilk çağırışı ilə 300 seçmə əsgəri ilə Gəncədə, Şirvanda və digər hərbi əməliyyatlar ehtimalı olan bölgələrə gələrək orada hərbi xidmət göstərməli idi [10, səh.1091].

Əli Sultan Şəki bəylərbəyi təyin olunduğundan əvvəllər Saxur hakimliyinin tərkibində olmuş Qax da Məhəmməd bəyin sərəncamına keçir və ona Qax bəylərbəyi titulu verilirdi [11, səh.1092].

Əli sultanın hakimiyyəti illərində İlisu sultanlığının bölgədəki rolunun artmasını Osmanlı sultanlarının onun tabeliyində olan qoşunlardan hərbi yürüşlərdə, üsyanların yatırılmasında və s. tədbirlərdə istifadə etmək niyyətləri də açıq şəkildə sübut edir.

Hərbi yürüşlərdə Əli sultanın qoşunları bir qayda olaraq Gəncə hakimi İbrahim paşanın, Şirvan hakimi Hacı Davudun və car-balakənlilərin qoşunları ilə birlikdə çıxış edirdi [10, səh.1091].

Lakin Səfəvi dövləti yenidən Şimali Azərbaycanda möhkəmləndikdən sonra vəziyyət dəyişir. Əli sultan daha çox Nadir xana meylli siyasət yürütməyə başlayır və onun bu meyli həm ilisuluların, həm şəkililərin, həm də car-balakənlilərin narazılığına gətirib çıxarır. Əli sultanın mövgeyinin əksinə olaraq, onun oğlu Məhəmməd bəy car-balakənlilərlə, şəkililərlə və dağıstanlılarla birlikdə əfşar qoşunlarına qarşı vuruşurdu [12, səh.31].

Daxili çəkişmələr üzündən Əfşar dövlətinin Azərbaycandakı nüfuzunu itirdiyi şəraitdə, Osmanlı imperiyası müxtəlif vədlərlə yerli hakimləri yenidən öz tərəfinə çəkməyə çalışırdı. Bu məqsədlə yerli hakimlərə sultan tərəfindən fərmanlar və müəyyən məbləğdə pul göndərilirdi. Əl-Qədərinin və A.Bakıxanovun məlumatlarına görə, Saxurlu Məhəmməd bəyə də onun hakimiyyətini təsdiqləyən fərman, ikimuncuqlu paşa

titulu və pul göndərilmişdi [13, səh.83; 14, səh. 150].

Lakin qonşu hakimlər kimi, Məhəmməd bəy də Osmanlı sultanın çağırışlarını cavabsız qoydu.

**XVIII əsrin ikinci yarısı - XIX əsrin birinci yarısında Şəki xanlığı ilə İlisu sultanlığı arasındakı münasibətlər**

1847-ci ildə Nadir şahın ölümündən sonra Azərbaycanda yaranmış siyasi vəziyyət burada yeni müstəqil xanlıqların və sultanlıqların yaranmasına və həmçinin artıq mövcud olan hakimliklərin möhkəmlənməsinə əlverişli şərait yaradırdı.

Məlum olduğu kimi, Şəki xanlığı hələ 1843-cü ildə, yəni Əfşarlar imperiyasının dağılmasından əvvəl öz müstəqilliyini qazanmışdı.

Bu dövrdə Şəki xanlığı ilə İlisu sultanlığı arasındakı münasibətlərin inkişafı davam etdirilirdi. Onlar arasında həm müttəfiqlik münasibətləri, həm də qohumluq əlaqələri mövcud idi. Belə ki, İlisu sultanlarının şəcərəsinə əsasən, Şəki xanı Hüseyn xanın oğlu Əhmədxan sultanın qızı ilə evli idi [15, səh.1121].

1859-cu ildə Şəkidə olmuş məşhur fransız yazıçısı A.Düma orada şəkili Hüseyn xanla ilisulu Əhməd xan sultanın nəvəsi olan Məhəmməd xanla görüşmüşdü. Yazıçı qeyd edirdi ki, əgər bu vilayət (Şəki – E.L.) ruslar tərəfindən tabe edilmiş olmasaydı, buranın hakimi Məhəmməd xan olacaqdı [16, səh.119].

Bundan əlavə, ilisulu Musa sultan şəkili Hacı xanın qızı ilə evli idi [15, səh.1121]. Bu qohumluq əlaqələri Şəki xanlığı ilə İlisu sultanlığı arasında sıx və müntəzəm münasibətlərin mövcud olduğunu təsdiq edir [1, səh.66].

XIX əsrin əvvəllərindən Azərbaycan torpaqlarının işğalına başlamış Rusiya imperiyası yeni işğal etdiyi ərazilərdə öz hakimiyyətini möhkəmləndirmək üçün müxtəlif üsullardan istifadə edirdi. Bu üsullardan biri də yerli əhalini bir birinə qarşı qaldırıb daxili birliyi parçalayaraq işğal edilmiş ayrı-ayrı xanlıq və sultanlıqları tamamilə ram etmək idi. Xüsusilə bu üsuldan çar administrasiyası tərəfindən Yermolovun dövründə geniş istifadə olunmağa başlanıldı [1, səh.104]. Bu cür siyasətdən Şimal-Qərbi Azərbaycanda da Car-Balakən camaatlığı, İlisu sultanlığı və Şəki xanlığı arasında da nifaq salmaq məqsədilə geniş istifadə olunurdu.

Belə ki, bu cür taktikaya çar höküməti qazıqumuqlu Surxay xanı gizlədən İlisu sultanlığının Almalı kəndinin əhalisini cəzalandırmaq üçün əl atmışdı. Bu məqsədlə general-leytenant Velyaminov Almalı əhalisinə qarşı qonşu Şəki xanlığının əhalisini qaldırmağa planlayır [17, səh.765]. Bəhanə olaraq isə Almalıda saxta pulların kəsilməsi və bunun şəkililərə maddi ziyan verməsi faktı istifadə edildi.

6 avqust 1820-ci il tarixində Nuxa komendantı podpolkovnik Vadarskinin göstərişi ilə şəkililərdən 1055 nəfər süvari və 1000 nəfər piyadadan ibarət qoşun təşkil edildi [17, səh.765]. Qeyd etmək lazımdır ki, yürüşün məqsədi haqqında onun iştirakçılarına yalnız İlisu sultanlığının sərhədlərinə yaxınlaşarkən məlumat verilmişdi. Onu da xüsusi qeyd edək ki, yürüş iştirakçılarının tərkibinə əvvəlcədən tam məlumatlandırılmış ermənilərdən ibarət xüsusi süvari dəstəsi də daxil edilmişdi. Almalı camaatı hələ yuxudan oyanmamış səhər saat 04.00 da onların 200 evinə dükanları və digər əmlakı ilə birlikdə yürüş iştirakçıları tərəfindən od vuruldu. Bu işdə 300 nəfərdən ibarət erməni süvari dəstəsi xüsusi canfəşanlıq göstərirdi [17, səh.765].

Tezliklə almalıların köməyinə qonşu Car-Balakən kəndliləri yetişmiş və onların birgə səyi nəticəsində hücum çəkənlər kənddən çıxarılmışdı. Bu əməliyyatın uğuru isə Almalı kəndində tacir qismində fəaliyyət göstərən iki ermənin casusluq edərək kənddə baş verənlər haqqında Vadarskiyə bütün məlumatların ötürülməsi hesabına təmin edilmişdi [17, səh.765].

Göründüyü kimi, çar hököməti o dövrdə də yerli əhali arasına nifaq salmaq məqsədi ilə ermənilərdən məharətlə istifadə edirdi.

Buna baxmayaraq, bölgədə imperiyaya qarşı baş verən bütün üsyanlarda qonşu hakimliklərin əhalisi birgə çıxış edirdi.

Buna konkret sübut olaraq 1844-cü ildə Daniyal sultan tərəfindən Rusiya imperiyasına qarşı qaldırılmış üsyanı göstərmək olar. Üsyan zamanı ilisuluların köməyinə qonşu Car-Balakən və Şəki kəndlərindən də xeyli adam gəlmiş və sona qədər ruslara qarşı qəhrəmancasına vuruşmuşdular. Üsyanı yatırmış və İlisu kəndini

darmadağın etmiş general Şvartsın raportunda İlisunun müdafiəsi zamanı öldürülmüş ilisuluların arasında xeyli şəkililərin də cəsədlərinin aşkarlanması faktı öz əksini tapmışdı [18, səh.739].

Beləliklə, əsrlər boyu, tarixin müxtəlif dövrlərində, ən çətin anlarda Şimal-Qərbi Azərbaycanda mövcud olmuş hakimliklərin, o cümlədən Şəki xanlığı ilə İlisu sultanlığı arasında, sıx qonşuluq, müttəfiqlik və qohumluq əlaqələri olmuşdur. Xarici təcavüz baş verdikdə isə bu bölgənin əhalisi bir yumruq kimi birləşərək öz torpaqlarını müdafiə etmişdir.

**Nəticə**

Mövzu üzrə apardığımız tədqiqatlar aşağıdakı nəticələrə gəlməyimizə imkan vermişdir:

1.Həm Şəki xanlığı, həm İlisu sultanlığı yarandıqları vaxtdan nəinki mövcud olduqları bölgənin, həm də ümumiyyətlə Qafqazın siyasi tarixində mühüm rol oynamışdır. Bunu Azərbaycanın hər iki hakimliyin geo-strateji mövgeyini nəzərə alaraq həm Səfəvi, həm də Osmanlı dövlətlərin bu iki hakimlikdən öz Qafqaz siyasətlərində istifadə etməsi faktı tamamilə sübut edir. Bu iki imperiyadan hansının Qafqazda möhkəmlənməsindən asılı olmayaraq hər ikisi sərhəd bölgələrdə yerli müsəlman hakimliklərinin möhkəmləndirilməsi siyasətini davam etdirirdi. Gəldiyimiz nəticəni ilk növbədə Səfəvi və Osmanlı hökmdarlarının Saxur və Şəki hakimlərinin adına göndərdikləri fərmanlar təsdiqləyir.

2.Şəki xanlığı ilə İlisu sultanlığı arasındakı münasibətləri əsasən tədqiq etdiyimiz dövrə aid mənbələr (İlk növbədə Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında toplanmış sənədlər) əsasında izləməyimiz bu iki dövlət qurumu arasında sıx siyasi-iqtisadi, müttəfiqlik və qohumluq əlaqələrinin olmasına dair nəticəyə gəlməyimizə imkan vermişdir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Letifova E.M. İlisuyskoye sultanstvo. Bakı, “Şərq-Qərb”, 2010, 400 s.

2. Efendiyev O.A. Azerbaydjanskoye qosudarstvo Sefevidov (rus dilində). Baku, “Elm”, 1981, 308 s.

3. İsmayılov M. Şəki. Bakı, “Azərbaycan Dövlət Nəşriyyatı”, 1982, 152 səh.

4. Azərbaycan tarixi. 7 cilddə. I cild. Bakı, “Elm”, 1999, 584 səh.

5. Hacı Seyid Əbdülhəmid. Şəki xanları və onların nəsilləri., “Azərbaycan ensiklopediyası” Nəşriyyat-poliqrafiya birliyi, Bakı, 1993, 24 səh

6. Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər, XVI-XVII əsrlər. Bakı, “Elm”, 1977, 238 səh.

7.Firman Taxmasib şaxa Saxurskomu vladeltsu Adi Kurkulu beku ot redjeba 970 (1562) qoda, Aktı Sobrannıye Kavkazskoy Arxeoqrafiçeskoy Komissiyey (bundan sonra AKAK) (rus dilində), II cild, sənəd 1, Tiflis, “Tipoqrafiya Qlavnoqo upravleniya namestnika Kavkaza”, 1868

8.Azərbaycan tarixi, III cild, Bakı, 1999, 584s.

9.Gürcüstan Dövlət Tarix Axşivi (bundan sonra GRDTA), f.236, siy.2, iş 88, v.8-9

10.Firman sultana Axmeda III na imya Ali sultana Şekinskoqo ot zil-kade 1135 (1722) qoda (rus dilində). AKAK, cild II, sənəd18, Tiflis, “Tipoqrafiya Qlavnoqo upravleniya namestnika Kavkaza”, 1868

11.Firman turetskoqo sultana Axmeda III na imya şekinskoqo beqlyarbeka Ali Paşi ot poslednix çisel zil-hidje 1142 (1729) qoda (rus dilində). AKAK, cild II, sənəd 19, Tiflis, “Tipoqrafiya Qlavnoqo upravleniya namestnika Kavkaza”, 1868

12.Xronika voyn Djara v XVIII stoletii (rus dilində). Pod redaksiyey Xuluflu V. Baku, 1931

13.Alkadari Q. Asari Dagestan. Махачкала, “İzdaniye Daqestanskoqo nauçno-issledovtelskoqo instituta”, 1929

14.Bakixanov A. Gülistan-i İram (rus dilində). Bakı, “Elm”, 1991, 304 səh.

15.Qenealogiya Yelisuyskix sultanov (rus dilində). AKAK, cild V, Tiflis, “Tipoqrafiya Qlavnoqo upravleniya namestnika Kavkaza”, 1873

16. Düma A. Qafqaz səfəri. Bakı, “Yazıçı”, 1985

17. Predpisaniye gen.-l. Velyaminova Nuxinskomu komendantu ot 29-qo iyulya 1820 qoda (rus dilində). AKAK, cild VI, I hissə, sənəd 170. Tiflis, “Tipoqrafiya Qlavnoqo upravleniya namestnika Kavkaza”, 1874

18.Raport gen.-m. Şvartsa gen. Neydqardtu ot 25-qo iyunya 1844 qoda (rus dilində). AKAK,

cild IX, sənəd 623, Tiflis, "Tipoqrafiya Qlavnoqo
upravleniya namestnika Kavkaza", 1883

**ELVIRA MAHAMMAD LATIFOVA**
Baku State University
E-mail: eletifova@mail.ru

## THE SHEKI KHANATE AND THE ILISU SULTANATE: A PLACE IN THE POLITICAL HISTORY OF THE CAUCASUS OF THE 16TH-BEGINNING OF THE 19TH CENTURIES AND THEIR RELATIONSHIPS

**Abstract:**The main purpose of writing this article is to study, based on sources, the role of two state entities that existed in the north-west of Azerbaijan - the Sheki Khanate and the Ilisu Sultanate in the political history of the Caucasus in the 16th-early 19th centuries. In addition, a special place is given to the study of the relationship between the Sheki Khanate and the Ilisu Sultanate.

Our research on this topic showed that both the Sheki Khanate and the Ilisu Sultanate were formed at a difficult time for the Caucasus - in the conditions of the Safavid-Ottoman rivalry for the Caucasus. In addition, during their emergence and existence, these two state institutions played an important role and place in the Caucasian politics of the great empires.

The article also examines the relationship between the Sheki Khanate and the Ilisu Sultanate, and concludes that there are close political, economic, allied and kinship relations between them.

**Keywords**: Sheki Khanate, Ilisu Sultanate, Caucasus, Safavid State, Ottoman Empire

**ЭЛЬВИРА МАГАМЕД кызы ЛАТИФОВА**
Бакинский государственный университет
E-mail: eletifova@mail.ru

## ШЕКИНСКОЕ ХАНСТВО И ИЛИСУЙСКОЕ СУЛТАНСТВО: МЕСТО В ПОЛИТИЧЕСКОЙ ИСТОРИИ КАВКАЗА XVI- НАЧАЛА XIX ВВ. И ИХ ВЗАИМООТНОШЕНИЯ

**Резюме:** Основной целью написания данной статьи является изучение на основе источников роли двух государственных образований, существовавших на северо-западе Азербайджана - Шекинского ханства и Илисуйского султанства в политической истории Кавказа XVI- начала XIX веков. Кроме того, особое место отводится изучению взаимоотношений Шекинского ханства и Илисуйского султанства.

Наши исследования на эту тему показали, что и Шекинское ханство, и Илисуйское султанство образовались в сложное для Кавказа время - в условиях сефевидо-османского соперничества за Кавказ. Кроме того, за время своего возникновения и существования, эти два государственных учреждения играли важную роль и место в кавказской политике великих империй.

В статье также исследуются взаимоотношения между Шекинским ханством и Илисуйским султанством, и делается вывод о наличии между ними тесных политических, экономических, союзнических и родственных отношений.

**Ключевые слова:** Шекинское ханство, Илисуйское султанство, Кавказ, Сефевидское государство, Османская империя

**Daxil olub:** 14.08.2021